# Yeni reallıqlar seçkilərin keçirilməsi zərurətini yaradıb

**2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkiləri keçiriləcək. YAP Sədri İlham Əliyevin namizədliyi partiya tərəfindən irəli sürülüb. Bu qərar həm də xalqın arzu və istəyinin ifadəsidir.**



Zəfər seçkiləri kimi qiymətləndirilən növbədənkənar prezident seçkiləri ilk dəfə olaraq, suverenliyini və ərazi bütövlüyünü tam təmin etmiş respublikamızın bütün ərazisində keçiriləcək. Bu dəfə seçicilər həm də qalib xalqın nümayəndələri kimi səs verəcəklər.

Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Emin Hacıyev bildirib ki, növbədənkənar seçkilərin keçirilməsi bütün dünyada qəbul olunmuş siyasi təcrübədir: "Yəni Konstitusiyaya uyğun olaraq hər bir ölkədə təsadüf olunan prosesdir. Belə ki, seçkilər bəzi hallarda təxirə salındığı kimi, bəzən də vaxtından əvvəl keçirilir. Seçkilər növbədənkənar keçirildiyindən vətəndaşlarımız öz siyasi iradələrini sadəcə olaraq vaxtından əvvəl ifadə edirlər".

Hazırda mürəkkəb proseslərin baş verdiyi beynəlxalq siyasi şəraitdə yaşadığımızı qeyd edən deputat deyib ki, regionda tam müstəqil bir ölkənin olmasını və Azərbaycanın qələbəsini həzm edə bilməyən dövlətlərin təxribatlarının, ölkəmizdə ictimai-siyasi vəziyyəti gərginləşdirmə cəhdlərinin qarşısını almaq üçün siyasi sistemin gücləndirilməsi strateji əhəmiyyət kəsb edir.

E.Hacıyev vurğulayıb ki, torpaqlarımızın işğaldan azad edilməsi və separatçılığa son qoyulması ilə regionda yeni reallıq yaranıb. "Mövcud reallıqların fonunda yeni tarixi dövrə qədəm qoyan Azərbaycanda növbədənkənar prezident seçkilərinin keçirilməsinə zərurət yaranıb. Ona görə də hesab edirəm ki, bu seçkilərin təyin olunması islahatların davamı və ölkəmizdə yeni inkişaf strategiyasının müəyyənləşdirilməsi baxımından vaxtında verilmiş düzgün qərardır", - deyə o əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

AZƏRBAYCAN

**23 dekabr 2023-cü il**